

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 iyul 2024-cü il №55 (2866) https://mod.gov.az Qiyməti 30 qəpik


*Reportaj*

## Zirvələrin dəmir qanadlı şahinləri



*Ötən əsrin sonlarında regionda cərəyan edən qeyri-sabitlikdən və ölkə hakimiyyətimizin səriştəsizliyindən sui-istifadə edən qonşuluğumuzdakı Ermənistanın silahlı birləşmələri xaincəsinə torpaqlarımızı işğal etməyə başladılar. Elan olunmamış müharibəyə cəlb olunan xalqımız hazırlıqsız olduğu üçün düşmənin məkrli niyyətlə edilmiş hücumları qarşısında tam olaraq tab gətirə bilmirdi. Uzun illər heç bir insanlığa sığmayan, xüsusi amansızlığı özündə əks etdirən əməllərlə xalqımıza divan tutan erməni silahlı birləşmələri öz havadarlarının dəstəyi ilə ölkəmizin ərazilərini zəbt etdi və bu əməlini günahsız soydaşlarımızın qanını tökməklə həyata keçirdi.*

Bir sözlə, güclü ordunun və güclü liderin olmaması güclü xalqımızın qəddini əymək üzrə idi. Həmin dövrdə dövlət rəhbərliyində oturanların səriştəsizliyinin nəticəsi idi ki, ordumuz pərakəndə şəkildə və könüllü dəstələrdən ibarət bölmələrlə düşmənə qarşı vuruşurdular. Lakin bu cür ordu ilə lazımi nəticə əldə etməyə inam sadəcə olaraq sadəlövhlük olardı. Vahid komandanlığın və zəruri təminat-təchizat vasitələrinin mövcud olmaması cəbhədə döyüşən şəxsi heyətin də mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərirdi. Bunun nəticəsi idi ki, bölmələrimiz hətta əlverişli yüksəkliklərin belə qorunmasında çətinlik çəkirdilər. Düşmən yaradılan boşluqdan da istifadə edərək ərazilərimizi işğal etməyə davam edirdi. Bir sözlə, gün keçdikcə dövlətimiz uçuruma doğru irəliləyir, süqut isə qaçılmaz idi. Bunu görən xalqımız ayaqlandı. Hakimiyyətə əsl lider və öndər lazım idi. Ömrünü xalqının inkişafına həsr etmiş, millətinin sosial rifahının, mədəni inkişafının əldə olunmasında müstəsna rol oynamış şəxs hakimiyyətə gəlməli idi. Belə olan halda yalnız uzaqgörən dahi şəxsiyyət Heydər Əliyev xalqın və dövlətin imdadına çata bilərdi. Çünki məhz Heydər Əliyev sovet dönəmində dövlət orqanlarında yüksək vəzifələrdə işlədiyi müddətdə rəhbər qüvvələrin etirazlarını, o cümlədən daxili təqibləri uğurla dəf edərək, azərbaycanlıların dirçəlişi və firavanlığı üçün əlindən gələni etməyi bacarmışdı. Məhz Ulu Öndər hakimiyyətə gəldikdən sonra həmin dövr ölkəmizdə hökm sürən bölücülük fəaliyyətinin kökünü qətiyyətlə kəsməklə, siyasi, iqtisadi, sosial dirçəlişin təmin olunmasında müstəsna rol oynadı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ordu quruculuğu işinin də vacibliyinin fərqində idi. Ordu quruculuğu sahəsi çox çətin, eləcə də mühüm iqtisadi potensiala malik olmaqla yanaşı, geniş diplomatik əlaqələrin və əməkdaşlıqların da zəruriliyini özündə birləşdirən məsələlərdən idi. Bunun fərqində olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qısa müddət ərzində təxirəsalınmaz və konkret hədəfə yönəlik işlər görüldü. Təsadüfi deyildi ki, cəbhədə ilk uğurumuz da məhz Əbədiyaşar Komandan Heydər Əliyev hakimiyyətə gəldikdən sonra əldə olundu. Belə ki, Horadiz əməliyyatı Birinci Qarabağ müharibəsi dövründə ən uğurlu döyüş əməliyyatı olaraq, tarixə həkk olundu. Bir sözlə, Ulu Öndər tərəfindən həyata keçirilən vacib islahatlar ordumuzun formalaşması və nizami ordu kimi təşəkkül tapması ilə nəticələndi. Uzun, keşməkeşli yol keçmiş, müqayisəolunmaz qərarlarla, sözün həqiqi mənasında, yenidən qurulan müasir ordumuz illər keçdikcə regionun şəksiz lideri olmaqla yanaşı, dünyanın da aparıcı orduları sırasında yer almağı bacardı.

Məhz bu ordu Əbədiyaşar Komandan Heydər Əliyev kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında düşməni tarixi torpaqlarımızda məğlubiyyətə uğratmaqla tarixi ədaləti bərpa etdi. Düşmənin 30 ilə yaxın "möhkəmləndiyi" mövqeləri darmadağın etmək və orada şanlı bayrağımızın dalğalandırılması üçün ordumuza cəmi 44 gün Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatı zamanı isə bir gündən də az müddət lazım oldu. Sonuncu fəaliyyətin uğurlu icrası ilə tarixi torpaqlarımızda Ermənistan silahlı qüvvələrinin qalıqları tərk-silah edildi və separatizmin yuvaları darmadağın olundu. Bir sözlə, ordumuz bu gün dövrünün dinamik inkişaf mərhələsinə uyğun olaraq və humanizm dəyərlərinə sadiq qalaraq qazandığı şanlı qələbələrlə dünyada misli görünməmiş tarix yazdı.

Şübhəsiz ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlərin miqyası çox böyükdür və bu mövzuda yazmaq üçün səhifələr belə kifayətsizdir. Bu məqalədə yalnız Hərbi Hava Qüvvələrimizin dünəni və bu günü arasında bir növ müqayisə aparacaq və bu işdə peşəkar HHQ zabitlərimizin bugünkü davamçılarının fikrini də öyrənib, siz oxucularımıza təqdim edəcəyik.

Hərbi Hava Qüvvələrinin zabiti Elmir Məmmədov bu mövzuda ilk müsahibimiz oldu. "Müstəqilliyimiz bərpa olunduqdan sonra ordu sisteminin vacib subyektlərindən olan Hərbi Hava Qüvvələrimizin yaradılması, mövcud bazanın dövrün tələbləri çərçivəsində qurulması və ixtisas üzrə təcrübəli zabitlərin hazırlanması məqsədi ilə təxirəsalınmaz işlərə başlanıldı. Məlumdur ki, müstəqilliyimizin ilk illərində ordumuzun inventarında olan döyüş təyyarələrini və helikopterlərini idarə etməyə qadir kifayət qədər kadr potensialına malik deyildik. Zaman keçdikcə, HHQ-nin şəxsi heyətinin komplektləşdirilməsi üçün zabit kadrların hazırlanması artıq ölkəmizdə təşkil olunmağa başladı. 1997-ci ildən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin başlatdığı kadr hazırlığı işi bu gün Heydər Əliyev adına Hərbi İnstitut tərəfindən uğurla həyata keçirilir. İldən-ilə qazanılan təcrübələri mənimsəyən şəxsi heyət dövrün tələbləri çərçivəsində öz ixtisasının incəliklərini mənimsəyir və sıralarımıza peşəkar hərbi qulluqçular kimi qoşulurlar. Hərbi hissəmizdə həm İkinci Qarabağ müharibəsi, həm də ondan əvvəlki əməliyyatlarda uğurla iştirak etmiş, həmçinin xarici ölkələrdə təşkil olunan kurs və təlimlərdə öz peşəkarlığını artırmış təcrübəli zabitlər xidmət edirlər ki, onlar da öz təcrübələrini gününümüzün gənc hərbçiləri ilə bölüşürlər. Bundan əlavə, dünyanın güclü ordularından birinə malik olan qardaş Türkiyə ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində keçirilən beynəlxalq miqyaslı təlimlərdə iştirak edən gənc hərbi qulluqçularımız müasir döyüş üsulları və vasitələrini öyrənərək öz ixtisasının nəzəri və praktiki incəliklərinə dərindən yiyələnirlər. Onu da xüsusi qeyd etmək lazımdır ki, pilot olmaq insandan yüksək savadla yanaşı, xüsusi diqqət və ayıqsayıqlıq, fiziki dözüm tələb edir. Bunun üçün də hərbi hissənin rəhbərliyi tərəfindən bu sahədə günün nizam qaydalarına uyğun olaraq fəaliyyətlər planı icra olunur. HHQ mənsubları döyüş vərdişlərinin günün istənilən vaxtına uyğun uğurla tətbiq etmə bacarığını yüksəltməsi üçün günün işıqlı və qaranlıq vaxtlarında uçuşlar həyata keçirilir", - deyə zabit bildirdi.

Sonra hərbi hissədə xidmət edən gənc zabitlərlə tanış olub, onların fikirlərini qələmə aldıq. İzzət Kərimli Hərbi Hava Qüvvələrimizin gənc və önəmli perspektiv vəd edən zabitlərindəndir. Günümüzdə dünya ölkələrində hərbi aviasiyanın önəmli rolunu qeyd edən zabit ölkəmizdə də bu sahəyə göstərilən xüsusi diqqətdən danışdı: "Son zamanlar dünya ölkələrində Hərbi Hava Qüvvələrinin rolu və çəkisi mühüm dərəcədə artıb ki, Azərbaycan Ordusunda da bu sahənin önəmi xüsusi qeyd olunmalıdır. Arsenalımızda olan aviasiya vasitələrinin müasir rəqəmsal texnologiyalarla təmin olunması və təchizat vasitələrinin müasir standartlara uyğun formalaşdırılması ilə uzaq məsafədən yüksək dəqiqliyə malik silahların tətbiqi və kəşfiyyat işlərinin aparılması imkanları artıb. İldən-ilə Hərbi Hava Qüvvələrimizin döyüş potensialının artırılması yuxarı komandanlığın qarşıya qoyduğu ən vacib tapşırıqlardandır. Biz də öz növbəmizdə təcrübəli komandirlərimizin bizimlə bölüşdüyü bilik və bacarıqları mənimsəyir, öz ixtisasımızın incəliklərinə dərindən yiyələnirik".

(Ardı 3-cü səhifədə)

# Müdafiə naziri azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb

*Müdafiə Nazirliyinin rəhbər heyəti azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşüb.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin bütün bölgələrində, o cümlədən azad edilmiş ərazilərdə hərbi qulluqçuların maddi-texniki təminatının və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması üzrə görülən işlərdən danışıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunda aparılan islahatların müsbət nəticələrini qeyd edən nazir bu istiqamətdə görülən işlərin bundan sonra da uğurla davam etdiriləcəyini əminliklə bildirib.

Sonda general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların qayğıları ilə maraqlanıb, onların fərdi hazırlığının inkişaf etdirilməsi, eləcə də bilik və bacarıqlarının artırılmasına dair şəxsi heyətə müvafiq tövsiyələr verib.




# Hərbi Prokurorluq hərbçilərlə birlikdə Yevlaxda tədbir keçirib

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksək rütbəli hərbi qulluqçuları birgə tədbir keçiriblər.*

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi hissələrdən birində təşkil edilən tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbirdə general-mayor Bilal Çompuzov, hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev, hərbi prokurorun böyük köməkçisi, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru, ədliyyə polkovniki Emin Vəliyev və başqaları çıxış ediblər.

Onlar çıxışlarında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən bəhs ediblər. Çıxışçılar, eyni zamanda, Ulu Öndərin Azərbaycanın parlaq gələcəyinə hesablanan mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə həyata keçirilən köklü islahatlardan, bütün sahələrdə qazanılan nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşdırılmasından, eləcə də ətraf mühitin daha da sağlamlaşdırılmasından və etibarlı qorunmasından danışıblar.



Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən, həmçinin ekoloji qanun pozuntularından, ekoloji cinayətlərdən və məsuliyyətdən danışılıb. Bundan əlavə, hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, eləcə də onların qayğı və problemləri ilə maraqlanılıb.

Sonda birgə ağaclar əkilib.

*Medallı igidlərimiz*

# Qazanılan qələbələr savadlı, bacarıqlı kadrlarımızın hesabına mümkün oldu

Azərbaycan Ordusunun hər bir mənsubu istənilən vaxt qarşıya qoyulan tapşırıqların öhdəsindən gəlməyə hazır olub. Hərbi qulluqçularımız yetərincə silahlandırılmış düşmənə qarşı Vətən müharibəsində, antiterror və digər hərbi əməliyyatlarda hünər və cəsarət nümayiş etdiriblər. Qazanılan qələbələr, əldə olunan uğurlar savadlı, bacarıqlı kadrlarımızın hesabına mümkün olub. Onlardan biri də Vətən müharibəsi iştirakçısı mayor Elvin Qurbanovdur.

Mayor Elvin Namiq oğlu Qurbanov 29 mart 1987-ci ildə Lənkəran rayonunda anadan olub. Uşaqlıq illəri Lənkəranın füsunkar təbiəti və gözəl kənd mühiti içərisində keçib. Vətənpərvərliyi və xalqına olan bağlılığı onun həyatında mühüm rol oynayıb. Belə ki, Elvin məktəbli olanda hərbçi olmaq qərarına gəlib. Hərbi sahəyə olan marağı və Vətənə xidmət arzusu onu 2002-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yönəldib. Liseydə aldığı təhsil, intizam, hərbi təlimlər və təcrübələr, onun hərbi xidmətində də uğur qazanmasına böyük kömək olub. 2005-ci ildə liseyi müvəffəqiyyətlə bitirdikdən sonra hərbi təhsilini davam etdirmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Məktəbdə aldığı təhsil hərbi strateji düşüncəsini və taktiki bacarıqlarını daha da inkişaf etdirib. Ali təhsil ocağında keçilən dərslər və praktiki təlimlər peşəkar hərbçi kimi formalaşmasında mühüm rol oynayıb.



Elvin 2009-cu ildə "leytenant" rütbəsində minaatan taqım komandiri kimi hərbi xidmətə başlayıb. O, Azərbaycanın ərazi bütövlüyünün bərpası və müdafiəsi uğrunda bir sıra mühüm döyüş əməliyyatlarında iştirak edib. 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin Tovuz döyüşləri, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi onun döyüş təcrübəsinin ən vacib mərhələlərindən olub.

30 ilə yaxın işğalda qalmış ərazilərimizin azad olunması uğrunda başlayan Vətən müharibəsində mayor Elvin Qurbanovun rəhbərlik etdiyi bölmələr də fəal iştirak edib, bir çox əməliyyatların uğurla həyata keçirilməsində mühüm rol oynayıb. Döyüşlər zamanı zabit döyüş meydanında göstərdiyi igidliyi ilə fərqlənib. O, yaxınlığına düşən top mərmisinin dalğasından zərbə alsa da, döyüş mövqeyini tərk etməyib, komandirlik vəzifəsini layiqincə yerinə yetirib. Bu cəsarəti onun əsgərləri üçün nümunə olub, onların döyüş əzmini artırıb. Mayor Elvin Qurbanov hərbi xidmətdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görülüb.

Mayor E.Qurbanov kimi hərbçilərimizin döyüş fəaliyyəti bu gün hər bir Azərbaycan gənci üçün örnəkdir. Vətənə olan sevgisi, xidmətdə və döyüşlərdə göstərdiyi igidlik gələcək nəsillərə vətənpərvərlik ruhunu aşılayacaq, onları Vətənə xidmət etməyə həvəsləndirəcəkdir.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Zirvələrin dəmir qanadlı şahinləri



(Əvvəli 1-ci səhifədə)

Növbəti müsahibim Hərbi Hava Qüvvələrinin zabiti Şahbala Şahbalazadə oldu. Ondan ilk sərbəst uçuş zamanı keçirdiyi hissləri öyrəndim. "Təyyarənin yerdən göyə qalxması kənardan rahat görünə bilər. Lakin öncəliklə onu xüsusi qeyd etməliyəm ki, bu işdə pilotla yanaşı, texniki heyətin də əməyini və xidmətini vurğulamaq lazımdır. Çünki pilotun göyə qalxıb, tapşırığı uğurla icra edib geri qayıtması üçün texniki heyət nəfərləri böyük əzmlə çalışır və hər bir işi xüsusi incəliklə görürlər. İlk uçuşum zamanı təcrübəli təlimatçı komandirlərimin göstərdiyi inam və etimad mənə əvəzolunmaz stimul verdi. Həyəcanım yüksək idi, lakin çoxdan bu günün həvəsində olduğum üçün sevincim həyəcanımı üstələdi. O anı sözlərlə ifadə etmək çətin olsa da, bir sözlə belə deyim, hisslərim yerlə göy arasında idi. İllərlə aldığım təhsilin, mənimsədiyim nəzəri və praktiki biliklərin bəhrəsini həmin gün gördüm. Çox sevincli idim. Pilotlarda belə bir ritual var ki, ilk sərbəst uçuşunu edib, yerə uğurla endikdən sonra səni su ilə qarşılayırlar. Həmin gün həyatımdakı ən yaddaqalan günlərdən biri idi. Bu gün də öz üzərimizə düşən məsuliyyəti dərindən dərk edir, Vətən müharibəsi və ondan öncəki əməliyyatlarda iştirak etmiş komandirlərimizin təcrübələrini mənimsəyərək, bu sahədə özümüzü daha da təkmilləşdiririk", - Şahbala Şahbalazadə dedi.

Zabit Razi Hacıyev keçirilən uçuşlarda və ölkəmizdə, o cümlədən ölkə hüdudlarından kənarda təşkil olunan müxtəlif miqyaslı təlimlərdə iştirak etmək bu sahədə təcrübənin qazanılmasında mühüm tədbirlərdən biri olduğunu qeyd etdi.

"Hərbi aviasiya sahəsində qardaş Türkiyə ordusu uzun illərdir ki, ixtisaslaşıb və bizim ordumuzun da onlarla birlikdə müxtəlif təlimlərdə iştirak etməsi qarşılıqlı təcrübə mübadiləsi və müasir döyüşaparma üsullarının öyrənilməsi üçün vacibdir. Qardaş Türkiyə Cümhuriyyəti ilə birlikdə keçirilən "Anadolu Qartalı", "TurAz Qartalı", "TurAz Şahini" və digər təlimlərdə qazanılan təcrübələr bizim xeyrimizədir. Keçirilən təlimlər bizim təcrübəmizi, bizim təcrübəmiz isə ordumuzun gücünü artırır. Həmçinin təsdiq olunmuş əməkdaşlıq planına əsasən təşkil olunan kurslar, treninqlər və ümumi olaraq təhsil proqramlarında iştirak edərək öz bilik və bacarıqlarımızı daha da artırırıq. Bir sözlə, dünyanın aparıcı ordularına malik dövlətlərin və beynəlxalq təşkilatların Hərbi Hava Qüvvələrində tətbiq olunan yeni proqram və mexanizmlərin bizim ordu ilə inteqrasiyası məqsədi ilə keçirilən kurs və təlimlərdə bizlər də iştirak edərək, Hərbi Hava Qüvvələrimizin dövrün tələblərinə uyğun qurulması prosesinə cəlb olunuruq".



Bu gün ordumuzun hər bir sahəsində olduğu kimi, Hərbi Hava Qüvvələrində də beynəlxalq təcrübənin öyrənilməsi və arsenalımıza yeni daxil edilən, müasir döyüş sistemləri ilə təchiz olunan aviasiya vasitələrinin dövrün tələbləri çərçivəsində səmərəli istifadə olunması məsələləri seçilmiş prioritet istiqamətlərdəndir. Uğurla davam etdirilən prosesin bugünkü gənc iştirakçıları ilə həmsöhbət olduqdan sonra bir daha əmin oldum ki, Azərbaycan Ordusunun hər bir qoşun növü kimi, Hərbi Hava Qüvvələri də gənc olmasına baxmayaraq, gələcək üçün böyük ümidlər vəd edir. 44 günlük Vətən müharibəsi zamanı sınaqdan üzüağ çıxmış dəmir qanadlı şahinlərimiz bundan sonra da regionda sülhün və sabitliyin təmin olunması üçün səmalarımızı layiqincə qoruyacaq, şanlı üçrəngli bayrağımızı daim göylərdə ləyaqətlə daşıyacaqlar.



**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Onlar döyüş hazırlıqlarını daim artırırlar

Bölmələrdə şəxsi heyətin döyüş hazırlığı həmişə önəmli məqsəd daşıyıb. Belə ki, hər bir əsgərin fərdi hazırlığı heyətin, bölmənin döyüş hazırlığına təsir edən ən mühüm amillərdəndir. Bu günlərdə hərbi hissədə özüyeriyən artilleriya qurğusunun heyətinin məşğələ yerində olduq. Mayor Tural Abbasov bildirdi ki, tabeliyində olan bölmələr müntəzəm təlim məşqləri keçirlər. Əsgərlər həmişə öyrənməyə can atırlar. Silah və döyüş texnikası üzərində öyrədilən hər bir bilgi onlar üçün yenilikdir və bunu daha ciddi mənimsəməyə səy göstərirlər. İkinci Qarabağ müharibəsinin iştirakçısı olmuş zabit heyətlərin yüksək döyüş hazırlığından söz açaraq dedi:

- Hələ müharibədən əvvəl də tabeliyimdə olan hər bir əsgərin döyüş və mənəvi hazırlığını yüksəltməyə çalışmışam. Həmişə müharibənin başlayacağı anı səbirsizliklə gözləmişəm. Çünki o zaman torpaqlarımız erməni silahlı dəstələrinin işğalı altında idi. Biz heç vaxt bu işğalla barışmamışdıq. Bu səbəbdən də biz hərbçilərin üzərinə böyük məsuliyyət düşürdü. Müharibə başlayan kimi ilk döyüşə gedən biz olacaqdıq. Döyüşdə qalib gəlməyin, uğur qazanmağın yeganə yolu əsgərlərin yüksək döyüş hazırlığından keçir. Bütün gücümüzü bu istiqamətdə cəmləmişdik. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmri ilə başlayan əks-hücum əməliyyatı cəmi 44 gün çəkdi. Bu, həm də biz hərbçilərin daim üzərimizdə çalışmağımızın nəticəsi idi.



Zabit Tural Abbasov onu da qeyd etdi ki, İkinci Qarabağ müharibəsində iştirak etmiş, hazırda da yüksək döyüş hazırlığı göstəriciləri ilə fərqlənən gizir Mirpaşa Ağayev digər silahdaşlarına da nümunədir. Özüyeriyən artilleriya qurğusunun komandiri ilə məşğələ yerində görüşdük. Əslən Ağdam rayonundan olan gizir 10 ilə yaxındır ki, hərbi xidmətdədir. Hərbçi olmaq onun hələ kiçik yaşlarındakı arzusu olub. Gözünü açandan doğma Ağdamı və digər ərazilərimizin ermənilər tərəfindən işğal edildiyini görüb. İşğal ağrısı həmişə onu sıxıb. Vətənimizi bütöv, xalqımızı sülh, əmin-amanlıq şəraitində görmək onun ən başlıca məqsədi olub. Bu gün torpaqlarımızı azad gördüyünə ən çox sevinənlərdən biri də Mirpaşadır. O, müharibə zamanı komandiri olduğu özüyeriyən tırtıllı top ilə əvvəlcədən təyin edilmiş məntəqəyə çıxıb, daha sonra verilən döyüş tapşırığını uğurla icra edib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Özüyeriyən artilleriya qurğusunun heyət üzvü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ruslan İbrahimov Gəncə şəhərində anadan olub. Ruslan neçə ildi ordu sıralarında xidmətini şərəflə davam etdirir. İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatlarında da iştirak edib. Atası Əli İbrahimov Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Hərbi xidmətə başladığı ilk gündən Vətən qarşısında övladlıq borcunu şərəflə, ləyaqətlə davam etdirəcəyini qarşısına məqsəd qoyub. Əhdinə sadiq qalan Ruslan bu gün komandirləri və silahdaşları tərəfindən sevilir. Ruslan deyir ki, hər bir hərbi qulluqçu özü özünü ucaldır. İnsan özünü ucaltdığı qədər onu heç kim ucalda bilməz. İnsanı ucaldan da onun çalışqanlığı, biliyi, bacarığı, mədəniyyətidir. İşində məsuliyyətli olmasıdır.

Müddətli həqiqi hərbi xidmət qulluqçularından Emil Hacıyev, Elmir Əhmədzadə, Aqil Əlihəsənli də özüyeriyən artilleriya qurğusunun heyətinin üzvləridirlər. Onların da hərəsinin öz vəzifəsi, öz tapşırığı var. Əsgərlərin hər biri Vətənimizin ayrı-ayrı bölgəsindəndir. Onları burada birləşdirən Vətənə xidmətdir. Əsgərlər həm də müxtəlif vaxtlarda hərbi xidmətə gəlsələr də, üzərlərinə düşən vəzifələri mükəmməl öyrənirlər. Bölmə çöl-atış təliminə çıxan zaman icra edəcəyi tapşırığı yaxşı bilir. Onların çöl-atış təlimi zaman icra etdiyi komandalar gələcəkdə döyüşdə tətbiq edəcəklərinə əmindirlər. Bu səbəbdən də hər bir heyət üzvü ona verilən tapşırığı, öyrədilən bilikləri dərindən mənimsəməyi qarşıya məqsəd qoyub. Əsgər Emil Hacıyev deyir ki, həftə içi dərslər keçirik. Özüyeriyən artilleriya qurğusunun taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını dönə-dönə təkrar edirik. Bu da nəticə etibarilə qurğudan mükəmməl istifadə bacarıqlarını aşılayır.

Məşğələ yerində gizir Mirpaşa Ağayev növbəti mövzu əsasında qurğunun taktiki-texniki xüsusiyyətlərini heyət üzvlərindən soruşanda hər bir üzvü verilən sualları dərhal, düzgün cavablandırırdı. Bəlli olurdu ki, heyət üzvləri dərsə hazır olduqları kimi, onların döyüş hazırlıqlarının da yüksək səviyyədə olduğuna əyani sübut idi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhid hərbi pilot Rəşad Atakişiyevin xatirəsi yad edilib







İyulun 24-də təlim-məşq zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin hərbi pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin həlak olmasının 5-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə İkinci Şəhidlər xiyabanında şəhid hərbi pilotumuzun məzarı ziyarət olunub, üzərinə əklil və gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşlarının iştirakı ilə Azərbaycan Hərb Tarixi Muzeyində tədbir keçirilib.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər şəhidimizin şərəfli döyüş yolundan, vətənpərvərliyindən, peşəkarlığından, döyüş əzmindən və milli-mənəvi dəyərlərimizə bağlılığından danışıblar.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra polkovnik-leytenant R.Atakişiyevə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbirdə ifa olunan vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqi nömrələri maraqla qarşılanıb.

## Şəhid Milli Qəhrəman Natiq Qasımovun ailəsinə mənzil təqdim edilib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid Milli Qəhrəman Natiq Qasımovun anası Dursun Qasımovaya Gəncə şəhərində yerləşən MİDA yaşayış kompleksindən ikiotaqlı, tam təmirli mənzil təqdim edilib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, mənzilin sənədlərini Natiq Qasımovun anasına Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov təqdim edib. O, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət qayğısı ilə əhatə olunduqlarını vurğulayıb.

Bildirilib ki, imtiyazlı şəxslərin mənzillə təminatı tədbirlərinə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb və ötən dövrdə uğurla davam etdirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra dövlətimizin başçısının göstərişi ilə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlə təminatı proqramı 5 dəfə genişlənib.

Postmüharibə dövründə 6072, ümumilikdə ötən dövrdə 15 minədək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

Şəhidin anası Dursun Qasımova diqqət və qayğı ilə əhatə olunduğuna, yeni mənzillə təmin edildiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Prezidentin 2024-cü il 25 iyun tarixli Sərəncamına əsasən, Natiq Səlim oğlu Qasımova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

## Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir

Azərbaycan Ordusunun müasir dövrdə inkişafı dövlətin və xalqın prioritetlərindən biridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu istiqamətində mühüm addımlar atılır. Müasir silah və texnika ilə təchiz edilmiş ordumuz hərbi strategiya və taktikaların təkmilləşdirilməsi sayəsində regionun ən güclü ordularından birinə çevrilib.

Azərbaycan Ordusunun nailiyyətləri yalnız hərbi sahədə deyil, sosial və iqtisadi sahələrdə də özünü göstərir. Ordunun gücləndirilməsi üçün ayrılan maliyyə vəsaitləri ölkənin ümumi iqtisadi inkişafına da töhfə verir. Müdafiə sənayesi sahəsində həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə müasir hərbi texnikaların istehsalı və modernləşdirilməsi həyata keçirilir. Bu isə ordumuzun arsenalını, silahlanma səviyyəsini daha da yüksəldir.

Azərbaycan Ordusunun beynəlxalq arenada da mövqeyi güclənir. Müxtəlif beynəlxalq hərbi təlimlərdə və əməkdaşlıq proqramlarında iştirak edən ordumuz dünya orduları ilə təcrübə mübadiləsi aparır. Bu isə Azərbaycan Ordusunun döyüş qabiliyyətini və peşəkarlığını daha da yüksəldir.

Ordunun şəxsi heyətinin peşəkarlığı və mənəvi-psixoloji hazırlığı da diqqət mərkəzindədir. Hərbi təlim və tədris proqramları hərbi qulluqçularımızın peşəkar hazırlığını təmin edir. Eyni zamanda, ordumuzda mənəvi-psixoloji hazırlığın yüksək səviyyədə saxlanılması üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər nəticəsində hərbi qulluqçularımızın döyüş əzmi və ruhu daim yüksəlir.

Azərbaycan Ordusunun silahlanması, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi dövlətin ən çox diqqət yetirdiyi sahələrdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək, ordumuzun inkişafını təmin edir. Vətən müharibəsinə qədər olan dövrdə yeni hərbi hissələrin tikilməsi, beynəlxalq təlimlərin keçirilməsi ordunun döyüş hazırlığının artırılmasında mühüm rol oynadı.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını alan Azərbaycan Ordusu Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri ilə əks-hücuma keçdi. Qısa müddət ərzində ordumuz düşmənin işğal müddətində qurduğu müdafiə sədlərini darmadağın etdi. Bu müharibədə əldə edilən zəfər ordumuzun döyüş əzmini və qələbə ruhunu artırdı. Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik".

Vətən müharibəsində qazanılan qələbə Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya nümayiş etdirdi. Suqovuşanın, Cəbrayılın, Hadrutun, Füzulinin, Zəngilanın, Qubadlının və nəhayət, Şuşanın azad edilməsi ilə Azərbaycan Ordusu tarix yazdı. Bu zəfər xalqın qürur mənbəyi oldu və Azərbaycanı sevən dövlətlərə könül xoşluğu yaşatdı.

Azərbaycan Ordusunun gücü təkcə döyüş meydanında deyil, həm də sülhməramlı missiyalarda da özünü göstərir. Ordumuz BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində keçirilən sülhməramlı əməliyyatlarda fəal iştirak edir. Bu, Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırmaqla yanaşı, ordumuzun peşəkarlığını və döyüş hazırlığını bir daha sübut edir.

Azərbaycan Ordusunun qələbələri və uğurları xalqımızın birlik və həmrəyliyinin nəticəsidir. Ordumuz xalqımızın güvənc yeri və qürur mənbəyi olaraq, ölkəmizin müdafiəsini təmin etməklə yanaşı, Azərbaycan dövlətinin və xalqının gücünü və iradəsini nümayiş etdirir. Hazırda yeni bir tarixi mərhələdə olan Azərbaycan Ordusu qüdrət, güc və zəfər mərhələsini yaşayır. Xalq ordumuza inanır və güvənir. Bu inam və güvənc ordumuzun gələcəkdə də böyük zəfərlər qazanacağının təminatıdır. Yeni inkişaf mərhələn mübarək, Azərbaycan Ordusu!

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyinin məlumatı

İyulun 25-də saat 10:55 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

## Müdafiə Nazirliyinin bəyanatı

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlərdə Ermənistanın Kəlbəcər istiqamətində ağır silahlar və Tovuz istiqamətində kvadrokopter tətbiq etməklə təxribatlar törətməsi barədə məlumatlar verməyib.

Qeyd edək ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyildir və davamlı xarakter daşıyır. Amerika Birləşmiş Ştatlarının Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında Ermənistana ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir.

Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edir ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcəkdir.

Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcəkdir.

*Tarix yazan oğullar*

# Əbədiləşən ömür



*Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda yüzlərlə, minlərlə Vətən fədaisi canından keçdi. "Təki Vətən yaşasın", - deyən fədailər əsl igidlik, vətənpərvərlik, sonsuz sədaqət nümunələri göstərdilər. Canlarından çox sevdikləri Vətəni azad, müstəqil, firavan, abad görmək istəyirdilər.*

Vətənə, xalqa sədaqəti ilə seçilən vətənsevərlərdən biri də Gədəbəy rayonunun Novo-Saratovka kəndinin yetirməsi Hüseyn Aslan oğlu Rzayevdir. Etibarlı Vətən müdafiəçisi kimi tanınan Hüseyn zəhmətkeş bir ailədə boya-başa çatıb. Hüseyni tanıyanlar onun anım mərasimində xatirələrini bölüşdülər.

Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi ehtiramla yad olundu.

Sonra Vətən müharibəsində ordumuzun düşmən üzərində tarixi qələbəsinin əldə edilməsində igid Vətən övladlarının Vətən sevgisindən, igidlik və şücaətlərindən bəhs etdilər. İgid döyüşçü kimi tanınan Hüseyn Rzayevin həyatı, keçdiyi döyüş yolu haqqında məlumat verildi. Bildirildi ki, o, 14 may 1996-cı ildə anadan olub. Kənd orta məktəbində orta təhsil alıb. Təhsil illərində qədim mədəniyyət və incəsənətimizə, hərb tariximizə böyük maraq göstərib. Vətən müharibəsi qəhrəmanları haqqında kitablar oxuyub, onun odlu-alovlu günlərinə həmişə böyük diqqət yetirib. Şəhidlərin həyatına dair sənədli filmlərə maraqla baxıb. Əsgər olub Vətən keşiyində dayanmaq həmyaşıdları kimi onun da ən böyük arzusu olub. 2014-cü ildə hərbi xidmətə çağırılıb. Xidmət müddətində intizamlı əsgər kimi tanınıb. Atıcı silahlardan məharətlə istifadə etməyi öyrənib. Komandirlərin rəğbətini qazanıb, ailəsinə təşəkkür məktubu da ünvanlanıb. Cəsarətli, mərd, qorxmaz, vətənsevər oğul böyütdüklərinə görə valideynlərinə minnətdarlıq ifadə olunub. Hərbi xidmətdən tərxis olunduqdan sonra xidmətini davam etdirmək istəyini valideynlərinə bildirib. Onlar da Hüseynin istəyinə qarşı çıxmayıblar. 2016-cı ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Taqım komandirinin müavini vəzifəsinin öhdəsindən bacarıqla gəlib. Silahdaşlarını da həmişə nümunəvi xidmətə sövq edib. Onun da ən böyük arzusu Vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə iştirak etmək idi.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı birləşmələri sərhəd boyu ərazilərimizə geniş miqyaslı hücuma keçdilər. Mənfur düşmənin hücumlarının dəf edilməsi üçün Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən ordumuza əks-hücum əmri verildi. Hüseynin xidmət etdiyi hərbi hissə də Füzuli bölgəsində döyüş əməliyyatlarına qatıldı.

Qısa müddətdə düşmənə sarsıdıcı zərbələr vuraraq bir neçə kəndi azad edən hərbçilərimiz torpaqlarımızı düşməndən təmizlədi. Döyüşlərdən birində Hüseyn düşmən gülləsinə tuş gəldi. Canından çox sevdiyi Vətən yolunda şəhidlik zirvəsinə ucaldı. O, kənd qəbiristanlığında torpağa tapşırıldı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların xatirələrinin əziz tutulacağını, heç vaxt unudulmayacaqlarını, onların həyatının, döyüş yollarının nümunə göstəriləcəyini vurğuladılar.





Hərbçilər və ictimaiyyət nümayəndələri ordu və xalqın yenilməz birliyindən, Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharətindən, həyata keçirdiyi daxili və xarici siyasətin böyük uğurlarından, Azərbaycanın dünya miqyasında artan nüfuzundan bəhs etdilər. Bildirdilər ki, dövlət rəhbərliyi tərəfindən şəhid ailələrinə, döyüşlərdə yaralananlara, sağlamlıqlarını itirən hərbçilərimizə yüksək diqqət, qayğı göstərilir. Sonra mərasim iştirakçıları kənd mərkəzində şəhidlərin xatirəsinə inşa olunmuş "Bulaq" kompleksinin açılışında iştirak etdilər. Tədbir iştirakçıları Hüseyn Rzayevin kənd qəbiristanlığındakı məzarını ziyarət edib üstünə gül dəstələri qoyaraq, xatirəsini ehtiramla yad etdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Sizi unutmadıq, unutdurmarıq, əziz şəhidlər!

Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var unudulub gedir, elələri də var ki, heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən şəhidlərimiz… Onlar xalqın qəhrəmanı olaraq ölməzlik qazanan, əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır. Canlarından keçməklə xalqın igidlik dastanını, azadlığını canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər… Vətəninə bağlı olan, onu canından üstün tutan elin oğlu heç vaxt yurdunun müdafiəsindən kənarda qala bilməz. Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından keçərək, şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu yüksək döyüş bacarığı göstərərək, torpaqlarımızı işğaldan azad etdi. Tarix yazanlar - ordumuzun igid, cəsur hərbi qulluqçuları Azərbaycanın haqq işi uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdilər. Onlardan biri də Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ramin Əli oğlu Kərimlidir.



Ramin 1999-cu il dekabrın 17-də İmişli rayonunun Qaragüvəndikli kəndində dünyaya göz açmışdı. Dünyaya gəlişiylə Kərimovlar ailəsinə sevinc, xoşbəxtlik, nur gətirmişdi… Hər bir övladın böyüyüb boya-başa çatmasında valideynin böyük əziyyəti olur. Raminin də boya-başa çatmasında ata, anası çətinliklərdən keçmişdi. Anası Solmaz xanım deyir ki, Ramin kiçik yaşlarında çox zəif uşaq olub, böyüdükcə möhkəmlənib. Qaragüvəndikli kənd məktəbini bitirdikdən sonra iki arzusunu dilə gətirərək, "Ana, ata, biz buradan şəhərə köçək, ya da rayon ərazisində bir ev tikək. Mən istəyirəm ki, rayonda, ya da Bakıda evimiz olsun. Həm də gələcəkdə hərbçi olmaq, Vətən torpaqlarının keşiyində dayanmaq istəyirəm", - deyib Ramin. Bu sözləri anası Solmaz xanım dilə gətirərək, böyük ürək yanğısı ilə söylədi. "Raminimin arzuları ürəyində qaldı. Hərbçi olmaq arzusu onu rahat buraxmırdı. Hərbi formanı çox sevirdi. Əsgəri xidmətdə olanda komandirlərinə "Mən hərbçi olmaq, xidmətimi davam etdirmək istəyirəm", - söyləmişdi. Lakin mən onun komandirlərinə "Evin tək oğlu olduğu üçün evə qayıtsın", - dedikdə oğlum bu fikrimə qəti surətdə etiraz edib, öz iradəsinin hökmü ilə israrla hərbçi olmaq arzusunu dilə gətirirmiş, "Mən mütləq hərbçi olacam", - demişdi.

Ramin böyük arzusuna çatdı, hərbçi oldu. Vətənin keşiyində ayıq-sayıq dayandı, torpaqlarımızın azadlığı uğrunda Müzəffər Ali Baş Komandanın döyüş əmrini o da səbirsizliklə gözlədi. Nəhayət, o müqəddəs gün gəlib çatdı. 27 sentyabr 2020-ci il… Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev əks-hücum əmri verdi… Ramin də silahdaşları ilə birlikdə Vətən torpaqlarının azadlığı uğrunda savaşa qalxdı. O, qorxmaz, igid bir əsgər kimi Füzuli istiqamətində gedən ağır döyüşlərdə 4 kəndin düşməndən azad olunmasında yaxından iştirak edərək, şəhidlik zirvəsinə ucaldı.

Dəfn mərasimində İmişli rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev Ramin Kərimlinin atasına Azərbaycanın üçrəngli bayrağını təqdim edərkən "Başını uca tut, əziz ata! Sən şəhid atasısan. Sənin oğlun Vətənimizin bütövlüyü naminə canından keçib, o, müqəddəs zirvəyə yüksəlib", - deyib.

Döyüş yoldaşları onun mərd, qoxmaz, düşmən üzərinə yeriyən bir əsgər olduğunu söyləyiblər. Ramin Kərimlinin arzuları böyük idi. Hərbin sirlərinə dərindən yiyələnmək istəyirdi…

Solmaz xanım yeganə övladının şəhid olmasından sonra həyat yoldaşı ilə kənddə artıq yaşaya bilmədiklərini dedi. "Orada Raminimin nəfəsi duyulurdu, biz orada yaşaya bilmədik. Qərara gəldik ki, rayon ərazisində köçək. Yoldaşımla birlikdə bir yurd yeri alıb, ev tikdik. O, Raminin həsrətinə dözə bilmədi, dünyasını dəyişdi. Ağır olsa da, indi mən iki dərdi qəlbimdə daşıyıram".

Bu gün Solmaz xanımın yeganə təsellisi oğlunun xatirəsinin əbədi yaşadılması və onun Azərbaycan Respublikasının Prezidenti tərəfindən medallarla təltif edilməsidir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ramin Kərimli (ölümündən sonra) "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb. Mükafatlar şəhidin anası Solmaz xanıma təqdim olunub.

Raminin ömür yolu Azərbaycan gənclərinə örnəkdir. Şəhidlərimizin xatirələrini əbədi yaşatmaq hər birimizin şərəf borcudur. Sizi unutmadıq, unutdurmarıq, əziz şəhidlər! Sizin hər birinizin adı qəlbimizdə yaşayır, yaşayacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Vətən gözdü, biz kirpik, Gözümüzün keşiyini çəkirik!

*Azərbaycanın dövlət sərhədləri daxilində hər qarış torpaq Vətən kimi sevilir. Başlanğıcı bəlli olmayan bu sevginin sonu da olmayacaq. Neçə-neçə yüz illərin o üzündə qalan tarix deyir ki, illərini ömür kimi yaşayanların düşüncələrində Vətən olub, Vətənin müqəddəsliyi olub, dövlət olub, dövlətçilik olub. Tarixin müxtəlif dönəmlərində dövlətçiliyimizə daşlar atılıb, sərhədlərimizdə yad atları kişnəyib, torpaqlarımızda düşmən qılıncları qınından sıyrılıb. O çağlarda da torpaq ululuq mərtəbəsində qorunub, indi də belə qorunur. Onda da əli silah tutanlar "Vətən gözdü, biz kirpik, Gözümüzün keşiyini çəkirik!" deyib, indi də belə deyirlər. Vətən müharibəsindən sonra - Azərbaycanımızın ərazi bütövlüyü tam bərpa edildikdən sonra Azərbaycan əsgərinin döyüş əzmi də, qələbə ruhu da, qətiyyəti də milli-mənəvi dəyərlərimizin tərkib hissələrindən biri kimi formalaşdı. Bu tarixi Zəfər Cənubi Qafqazda dünya nizamını sahmana saldı. İndi Azərbaycan əsgərinin Hərbi Andının davamı olan döyüş və mənəvi-psixoloji hazırlığı tarixi Zəfərin qüdrətinə söykənib. İşğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlər üçün də bu and sözlə ifadə edilməsi mümkün olmayan sədaqətdi. Bu sədaqət Vətən borcunun fövqündə dayanır...*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordumuzun qazandığı tarixi Zəfərə ehtiramının ifadəsi olan "Azərbaycan sülhü müharibə vasitəsilə təmin etdi..." fikri Vətən müharibəsinə də, qazanılan tarixi Zəfərə də, tarixi Zəfəri qazananlara da ehtiramın ifadəsidi. Bu kəlamlar işğaldan azad edilmiş ərazilərdə daha böyük qürurla xatırlanır.

* * *

Hümbət Cəfərov Qazaxın Aşağı Əskipara kəndində dünyaya göz açıb. Atası Birinci Qarabağ müharibəsində taqım komandiri olub. Kəndin işğal edilməsi, atasının döyüş xatirələriylə böyüyüb, düşüncələri bu xatirələrin, təəssüratların ağrı-acılarıyla, könüllülərin döyüş ruhunun qüruru ilə formalaşan Hümbətin də heysiyyətini silkələyib.

Hümbət orta məktəbi bitirib, Mədəniyyət və İncəsənət Universitetinin mədəniyyətşünaslıq fakültəsinə daxil olub. Təhsil illərində də düşüncələrində Vətən harayı səslənib. Bu kəsilməz haray o illərdə Azərbaycan gəncliyinin ruhunun döyüş əzmi olub.

Hərbi xidməti başa çatanda Hümbət hərbi hissənin komandirinə müraciət edib: "Zabit olmaq istəyirəm, komandir. Ali Baş Komandanın verəcəyi döyüş əmri ilə başlayacaq müharibədə zabit kimi iştirak etmək niyyətindəyəm...". Beləcə Hümbət öz istəyinin arxasıyca gedərək "Ehtiyat zabit hazırlığı kursu"na qəbul olub...

O günlərdən illər ötüb. Bir vaxtlar sıravi əsgər olan Hümbət, indi kapitan hərbi rütbəsini daşıyır. Vətən müharibəsi iştirakçısıdı. İşğaldan azad olunmuş ərazilərdə dislokasiya edilən hərbi hissələrdən birində xidmət edir...

- Hərbi qulluqçu üçün harada xidmət etmək o qədər də ciddi əhəmiyyətə malik deyil. Əhəmiyyətli məqam üçrəngli bayrağımızın dalğalandığı torpaqlarımızda layiqincə hərbi xidmət etməkdir. Ancaq bir vaxtlar biz də, bizdən beş-on yaş böyük olanlar da bu ərazilər haqqında



düşünüb, bu ərazilərin işğaldan azad olunması gününü arzulayıblar. Ordumuz Ali Baş Komandanın sərkərdəliyi ilə bu arzunu, bu niyyəti gerçəkləşdirdi. Qürurlanıram ki, işğaldan azad edilmiş ərazidə xidmət edirəm, Vətəni bu ərazilərdə qoruyanların sırasındayam.

Ermənilər Qazaxın Aşağı Əskipara kəndindən də çəkildi. Hərbçi harada xidmət etməsindən asılı olmayaraq elə bilir ki, öz elini qoruyur. Atam deyərdi ki, Vətən torpaq deməkdi, torpaq - ömür, ömür od-ocağa sevgidi. Biz də közümüzün, torpağımızın - Vətənimizin - gözümüzün keşiyini çəkirik...".

Füzulinin, Ağdamın, Cəbrayılın, Qubadlının, Zəngilanın, Laçının kəndləri də mənə Aşağı Əskipara qədər doğmadı. O kəndlər işğaldan azad ediləndə elə bilirdim kəndimiz azad edilib. İndi işğaldan azad edilmiş ərazidə xidmət edirəm, elə bilirəm kəndimizi qoruyuram. Hər kənd hər birimizə Vətəndi, Vətənimizi qoruyuruq...

Hərdən könlümdə özümlə şeirləşirəm də:

Vətənin o başı, bu başı olmur
A dağlar, duyğular
beşiyindəyik.
Torpaq da Vətəndi,
Vətəndi torpaq,
Biz də torpaqların
keşiyindəyik...

Əsgər Hüseyn Şirəliyev hərbi xidmətə Masallı rayonunun Ərkivan kəndindən çağırılıb. Uşaqlığında, yeniyetməliyində o da digər həmyaşıdları kimi müəllimlərinin Vətənə bağlı söhbətlərini, Birinci Qarabağ müharibəsi haqqında hekayətlərini maraqla dinləyib. O da müharibənin, işğalın nə olduğunu döyüşlərdə şəhid olmuş ərkivanlıların döyüş yolunu öyrənə-öyrənə, müharibə şəraitində yaşantılarını görə-görə dərk edib.

Səkkizinci sinifdə oxuyurdu. Tarix müəllimlərindən Başlıbel, Meşəli, Qaradağlı,... Xocalı faciələri haqqında da eşitmişdi. O da inanırdı ki, torpaqlarımız işğaldan azad ediləcək. İşğaldan qurtuluş döyüşlərində iştirak edən əsgərlərin davamçıları onlar olacaqlar. O ərazilərdə xidmət etmək istəyirdilər. Onda döyüşlər başlayanda yaşlarının azlığına görə yaşadıqları təəssüf azalacaqdı. Hərbi hazırlıq müəllimlərindən sıra hazırlığını, avtomatın söküləb-yığılmasını öyrəndikcə, Hərbi And içəcəkləri günə yaxınlaşdıqlarını hiss edirdilər...

Vətən müharibəsi başladı.



Torpaqlarımız işğaldan azad edildi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Hüseyn də qürurla deyirdi ki, mən işğaldan azad olunmuş ərazilərimizdə xidmət edəcəm.

Gənc əsgər hazırlığı başa çatdı. O da Hərbi And içib, o da ilkin hərbi bilikləri mənimsəyib, qoşunlarda xidmətə göndərilib. Xidmətini harada davam etdirəcəyini biləndə əsgər yoldaşlarına baxıb: "Niyyətimizə çatdıq"... - deyib.



İşğaldan azad edilmiş ərazidə xidmət edirdi. "Torpaqlarımızın keşiyini çəkirik..." qüruru onun da ürəyinin döyüntülərinə qarışırdı...

Hərbi xidmətin ilk günü də, Hərbi andiçmə günü də əsgərlərin yaddaşında qalır, bu iki günün ovqatını heç biri heç zaman unutmur.

İşğaldan azad edilmiş ərazidə xidmət əsgərin Vətənə sevgisinin göyqurşağına dönür. Burada xidmət edən əsgərlərin düşüncələri torpaq kəlməsinin mahiyyətini o qədər səmimiliklə, o qədər böyük sevgilərlə əsgərləşdirir ki, Vətən müharibəsində qalib gələn xalqı əsgər bilirsən; torpağın nə olduğunu, müharibənin nə olduğunu bilənlərin hamısı 2020-ci ilə kimi Ali Baş Komandanın əmri ilə başlayacaq müharibəni arzulayırdı. Bu döyüşlər işğaldan qurtuluş olacaqdı. O vaxtlar məktəbli olan əsgər Hüseyn Şirəliyev deyir ki, Vətənin nə olduğunu yuxarı sinif şagirdləri döyüşlərə getmək istəyəndə daha dərindən dərk etdik. Hərbi xidmətə də bu düşüncələrlə gəlmişik. İşğaldan azad edilmiş ərazidə xidmət düşüncələrimizi də əsgərləşdirib. Vətənimizin bu tərəflərini, komandirimizin dediyi kimi, ocağımız, közümüz, gözümüz kimi qoruyuruq.

Əsgərlərimiz gözəl düşünürlər. Gözəl düşüncələr nümunəvi xidmətin göstəricisidir.

Hüseyn Şirəliyev nümunəvi əsgərdir. O da yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malikdir. O da işğaldan azad olunmuş ərazidə xidməti ilə qürurlanır, tərxis edildikdən sonra bu ərazilərdə döyüşmüş əsgərlərlə söhbətləşəndə onlara deyəcək ki, sizin döyüş yolunuzun davamçıları olmuşuq...

Elmar Şirinov hərbi xidmətə İsmayıllı rayonundan çağırılıb. Qalacıq kəndində yaşayıb, təhsil alıb.

Vətən müharibəsi başlayanda səkkizinci sinifdə oxuyurdu. Kəndlərindən neçə-neçə cavanın rayon mərkəzinə getdiyini də görmüşdü, niyə getdiklərini də soruşmuşdu. Cavanlardan eşitdikləri müəllimlərindən sorğularına aldıqları cavabları tamamlamışdı: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Azərbaycan Ordusu ədalətli müharibədə tarixi Zəfər qazandı. Sonrakı daha bir hərbi əməliyyatla Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi. Bu, xalqın qələbəsi idi. Bu qələbə məktəblilərin də vətənpərvərlik duyğularını kükrətdi. Onlar işğalı sonlandırmış əsgərlərin davamçıları olacağı günün qüruruna qənşər gedirdilər - onları illərin niyyəti gerçəkləşdirəcəyi gün işıq kimi çəkirdi...

Elmarı da hərbi xidmətə çağırdılar. Müəllimləri ilə görüşmək üçün, onların da xeyir-duasını almaq üçün məktəbə getdi. Ona qürurla baxan müəllimlərinə vəd verdi - "Arzuladığınız kimi xidmət edəcəm!", onu uğurlayan baxışlara inam verdi - "Zəfər qazanmışlarımızın layiqli davamçılarından olacam!"...

Elmar işğaldan azad olunmuş ərazidə xidmət edir. Buralarda necə döyüşlər getdiyini də bilir, buraların igidliklə işğaldan necə azad edildiyini də. Onu da bilir ki, Azərbaycan əsgəri 32 il əvvəl o qarlı qış günü burada - qarşıdakı meşəliyin ətəyində də, suyu donmaqda olan çayın yanyörəsində də, yolun sağında-solunda da cəsarətlə döyüşüb, camaat uzaqlaşana kimi düşmənin hücumunun qarşısını saxlayıb. Ölümdən yaxa qurtaranlar xeyli aralıda pusquya düşüblər.

Əsgərlər bu əraziləri işğaldan azad edənləri tanımırlar. Tanımadıqları həmin döyüşçüləri özlərinə qardaş, xalqa oğul, tarixə qəhrəman bilirlər. Hamısı işğaldan azad edilmiş ərazidə xidməti Vətən müharibəsi başlayanda yaşının azlığına görə yaşadığı təəssüfə təsəlli bilir. Bu, qürurdur! Bu, sevgidir!

"Hər səhər üzü meşəliyə tərəf baxanda 32 il əvvəlin dəhşətlərini xatırlayırıq. Bu xatırlamalar Vətənə sevgimizi daha da artırır. İşğaldan azad edilmiş ərazidə xidmət etməyin qürurunu yaşamağı səadət bilirik. Bu, əsgəri səadətdi..." - Elmar belə deyir. Elmar həm də deyir ki, qonşumuz da işğaldan azad edilmiş ərazidə xidmət etmişdi. Deyirdi ki, komandirimiz də Vətən müharibəsinin iştirakçısı olmuşdu. Bu ərazilər uğrunda döyüşlərdə o da iştirak etmişdi. Onu vaxtaşırı yaxınlıqdakı yamacın ətəyində görərdik. Komandirimiz burada şəhid olmuş əsgərlərini unutmamışdı. Biz onun da döyüş təəssüratlarını maraqla dinləyirdik. Hərbi xidmətimizi burada keçirməyimizin qürurunu hər dəfə könül xoşluğu ilə yaşayırıq...

İşğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlər özünü tarixi Zəfər qazanmış əsgərlərin davamçısı bilir, onlara elə gəlir ki, ruhən sabah xidmət edəcək əsgərlərin də sıralarında olacaqlar...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Ən gözəl səhər



*Vətən müharibəsindən əvvəl ön xətdə, səngərlərdə əsgərlərlə günün nizam qaydalarına mane olmamaqla, müxtəlif vaxtlarda söhbətləşmişik. Döyüş növbətçiliyindən qayıdanlarla da, az sonra döyüş növbətçiliyinə gedəcək əsgərlərlə də söhbətlərimiz "Necəsiniz?"lə başlayardı, ancaq bitməzdi. Hər dəfə növbəti görüşə vədələşərdik. Onda döyüşlərdən, işğalın sonlandırılacağından danışardıq, növbəti görüşümüzdə qazanılacaq Qələbədən danışacağımıza əminliklə sağollaşardıq.*

Gün yaxa-yaxda da, gecələr hərdən görünən, hərdən buludların daldasına çəkilən Ayın, gah tənhalaşan, gah bir-birinə yaxınlaşan ulduzların o qədər də gur olmayan işığında da əsgərlər qətiyyətlə "Səngərləri sərhədlərə köçürəcəyik!" deyirdilər. Onda bu qüdrət kəlmələrin gecənin içindən keçib haracan gedəcəyi haqqında zərrəcə düşünmürdük. Bilirdik ki, duru niyyətlər müqəddəslik mərtəbəsinəcən çatır.

Əsgərlərdən biri Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş babasının bir döyüş təəssüratını xatırlamışdı:

- Döyüşə hazır idik. Niyəsə, döyüş əmri verilmirdi. Gecə uzandıqca uzanırdı. Yaz gecəsinin həlimliyində ləng ötüşən vaxta görə gileylənirdik. Dan yeri söküləndə hazırlıq əmri verildi, səhər açılar-açılmaz - hücum. O səhər gözəl səhər idi. O səhər bizə qələbə vəd edən səhər idi. Əsgərlərin qarşı yaxaya yönələn baxışları bir-birinə sarılmışdı. Bu vəhdətdə güc görmüşdük, qüdrət görmüşdük. Doğma baxışların diləyini başa düşmək çətin deyildi: Açılan səhərimiz gözəl səhər olsun! Gözəl istək idi, bu gözəl istəyi dan yeri sökülən səhərə niyyət duası bilmişdik...

2020-ci ilin 27 sentyabrında hücuma keçən düşmənə atılan güllələr, mərmilər hücumu dayandırmaq istəyinin gülləleriydi. 28 sentyabr səhəri atılan güllələr, mərmilər işğalı sonlandırmaq üçün başlayan Vətən müharibəsinin gülləleriydi, mərmiləriydi; niyyətlərin səhəriydi 28 sentyabr səhəri, döyüş əzminin, qələbə ruhunun səhəriydi, şəhidlərin ruhunun harayına boy göstərən səhəriydi, qorxuya, səksəkəyə dönüb düşmənin canına daraşası qüdrətin səhəriydi, "Bir ovuc torpaq da Vətəndi!", "Dövlət sərhədlərimizin bu üzündə səngər olmayacaq!", "Şuşaya aparan yollar görünür!" deyənlərin səhəriydi...

İşğaldan azad edilmiş ərazidə əsgərlərin əhatəsindəydim. Əsgərlər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elşad Səlimovun döyüş təəssüratlarını neçə dəfə eşidiblər. Bizimlə nəfəs-nəfəsə eşitmək də onlara xoş gəlirdi. Dinləyirdilər, həsəd apardıqları aydınlığıyla hiss olunurdu. Müqəddəs döyüşlərdə mahiyyətli söhbət indi də könül xoşluğu gətirirdi.

1992-ci ilin 31 dekabr gecəsi Tərtərdə Pənahla, Fəğanla düşmənin "beş-on addımlığında" postda dayanan əsgərlərlə könül söhbəti edirdik. "Gecənin içindən keçib ermənilərin postunu darmadağın edərik. Səhərə yaxın - dayaq məntəqələrini. Yəni, bir gecədə bir döyüşlük yolu yarılayarıq. Döyüş əmri olsa, gecəni gündüz bilib döyüşərik, döyüş əmri olsa, səhərimiz qələbəylə açılar...", - əsgərlərdən biri belə demişdi. Göy üzünə baxmışdıq, sonra qarşı tərəfə. Qarşı tərəfdə üzücü səssizlik vardı. Mənə elə gəlmişdi ki, burada xırdaca bir tərpəniş olsa, orada kimsə qalmayacaq; düşmənin səksəkəylə xidmət edən əsgərləri gecələrin səhərini səksəkəylə açırdılar. O əsgərlər Vətən müharibəsində xidmət edənlərin atalarına belə gecələrin necə uzandığını, necə keçdiyini, belə gecələrin səhərlərinin necə açıldığını danışıblar. Bunları eşidənlər, düşüncələrinə hopduranlar əsgər olanda ön xətdə xidmət edirdisə, günlərinin aya döndüyünə, aylarının il qədər uzandığına zərrəcə şübhəm yoxdu.

2020-ci il sentyabrın 27-də hücuma keçəndə də, Azərbaycan Ordusunun bölmələrinin ciddi müqaviməti ilə üzləşəndə də, az sonra gücündən çəkindiyi ordu əks-hücuma keçəndə də düşmənin əsgərlərinin, zabitlərinin barmağı tətik sıxanda titrəyib. Belə titrəyişlər onun müdafiəolunma instiktini, hərbi bacarığını üyüşdürüb. Geri çəkilə-çəkilə döyüşüb (döyüşməsə ölüm qorxusu yaşayıb). Azərbaycan Ordusu qətiyyətli hücumla düşmənin müdafiə sədlərini darmadağın etdi. İlkin qələbələr düşmənin əsgərlərinin olan-qalan müdafiəolunma istəyini əzirdi. Düşmənin özü də etiraf edirdi ki, əsgərləri bəzən döyüşdən yayınır. Bu yayınma döyüşdən imtina səviyyəsində yayınma idi.

Səhərin açılması məfhumu mənə ötən il döyüşçülərdən eşitdiyim bir döyüşü xatırlatdı:

Şükürbəylinin yaxınlığındaydılar. Səhərin açılmasını gözləyirdilər.

Kapitan Orxan Qədirovun rəhbərlik etdiyi bölmə böyürtkən kollarının arxasındaydı. Bu, döyüşçülərin hərəkətini bir qədər məhdudlaşdırırdı. Orxan rabitə ilə sol cinahda olan Sirac Siracovun xidmət etdiyi manqaya bildirdi ki, atəşi öz üzərinizə çəkin, biz manevr etməyə məcburuq. Belə də etdilər. Orxangilin bölməsi manevr etdiyi anlarda düşmən snayperi Rahili vurdu. Orxan bunu duyunca özünü yaralı döyüşçüyə yetirdi. Ülfət Qasımov ordaydı. Rahilə ilk tibbi yardım göstərirdi. Dövran yaralını kürəyində döyüşün içindən çıxartdı. Kolluqdan çıxdıqları anda düşmən snayperi Dövranı sinəsindən vurdu. Dövran döyüşçü yoldaşını təhlükəsiz yerə çatana kimi kürəyindən yerə qoymadı. Ora çatanda yıxıldı...

Düşmən bütün silahlarından atəş açırdı. Tank əleyhinə reaktiv qumbaraatandan da. Ramiq Dövranın köməyinə tələsdi. Mövqedən çıxdığı anda ayağına güllə dəydi...

Orxanın əmri ilə birinci manqa mövqedə qalıb döyüşü davam etdirməli, digər manqa yaralıları təxliyə etməliydi. Ziyagil manqa ilə sağdan, Orxangil qarşıdan, Siracgil soldan yaxın məsafədən atışırdılar. Snayperlər yüksəklikdə döyüşçülərimizin mühafizəsinə cəlb olunmuşdu. Sirac da, Zakir də yaralanmışdılar. Vüsal onlara ilk tibbi yardım göstərirdi. Düşmən döyüşçülərimizin döyüş əzmini, qələbə ruhunu sarsıda bilməzdi. Döyüşü az sayda döyüşçüylə davam etdirdilər - üç yaralı, yaralıları təxliyə edənlər döyüşə bilmirdilər. Qarşı tərəfə atılan güllələr sanki bir mətləbin carçısıydı: Mərə yağı, sən Azərbaycan əsgərinin qüdrəti qarşısında diz çökəcəksən!

Tab gətirə bilməyən düşmən qaçdı...

Gözəl bir səhər açıldı...

Belə səhərlər Azərbaycan əsgərinin döyüş əzmini də kükrədirdi, qələbə ruhunu da. Belə səhərlərin xoş ovqatı məmləkətə ən gözəl səhər vəd edirdi. O səhəri Azərbaycan əsgəri yetirəcəkdi. Onda hamımız döyüşçülərə ünvanlanan bir alqış eşidəcəkdik: Surunuz yerisin! Bu alqış Dədə Qorqudun alqışı olacaqdı. Bu alqış əsrlərdi dövlətçilik yolunda, torpaq yolunda möhtəşəm Zəfər qazananlara ünvanlanır.

Azərbaycan Ordusu 2020-ci il noyabrın 8-də tarix yazdı. Onda bir məqalə yazmışdım: "Yazdığınız tarixin işığında yazıram, Azərbaycan əsgəri!". O işıq açılan səhərin işığıydı. O işıq noyabrın 9-u səhərinin işığıydı...

Noyabrın 8-də Şuşa işğaldan azad edildi. 9 noyabr səhəri dünyanı heyrətə gətirdi - milli-xəlqi ruhun qüdrəti ilə, möcüzəsiz möcüzəsiylə, azərbaycançılığın dönməzliyiylə, vətənpərvərliyin nəhayətsizliyiylə. Bizə ən gözəl olan səhər dünyaya heyrət səhəri oldu; bəşəri dövlətlər 9 noyabr səhərinə dünyəviliyə doğan səhər dedilər...

Ruhumuzun şəhərini işğaldan Azərbaycan əsgəri qurtardı. Sonralar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan deyəcəkdi: "Azərbaycan torpaqları illərdi həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır". Bu kəlmələr ən gözəl səhərin nurunda könlümüzü incə-incə tellendirir.

Zəfər - səhər qafiyəsinin könüləyatımlığı ən gözəl səhərin ecazkarlığındadı...

İşğaldan azad edilmiş ərazidə əsgərlərlə söhbətlərimizdə bu haqda da danışmışıq. Həm də dan yeri söküləndə...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Litva ABŞ-dan "Javelin" üçün 6,5 milyon avroluq raket partiyası alıb



ABŞ Litvaya tank əleyhinə "Javelin" sistemləri üçün 6,5 milyon avro dəyərində raket partiyası göndərib. Bu barədə Baltikyanı respublikanın Müdafiə Nazirliyi məlumat yayıb. Məlumatda bunun Litva ordusunun döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə gücləndirəcəyi qeyd edilib.

Alınan raketlərin sayı dəqiqləşdirilməsə də, partiyanın dəyərinin 6,5 milyon avro (7 milyon dollar) olduğu bildirilir. Eyni silahlardan ibarət 16,6 milyon dollarlıq ilk partiya Litvaya may ayında çatdırılıb.

2023-cü ilin dekabrında Litva və ABŞ beş illik müddəti əhatə edəcək hərbi əməkdaşlıq planını imzalayıb. Plan çərçivəsində Litva ordusu üçün lazım olan silahların, o cümlədən HIMARS reaktiv yaylım atəş sistemlərinin, zirehli maşınların və tank əleyhinə "Javelin" raketlərinin tədarükü üçün 60-a yaxın layihə həyata keçiriləcək.

## "Lockheed Martin" lazer silahı üzərində işləyir



Amerikanın "Lockheed Martin" kompaniyası hava hücumlarını dəf edəcək lazer silahları üzərində çalışır.

"Lockheed Martin" kompaniyasının vitse-prezidenti Maykl Uilyamson bu barədə Londonda keçirilən "Farnborough 2024" beynəlxalq aviaşousu zamanı "Politico" nəşrinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, kompaniya gələcəkdə hava hücumlarını dəf etmək üçün lazer şüasını 100 kilometrdən çox proyeksiya etməyə imkan verəcək silah hazırlayacaq. Lazer silahına tələbatın getdikcə artdığı qeyd edən Maykl Uilyamson baha başa gələn hava hücumundan müdafiə sistemlərinin dronları məhv etmək üçün səmərəli olmadığını vurğulayıb.

Qeyd edək ki, iyulun 22-də Böyük Britaniya Müdafiə Nazirliyi "Wolfhound" zirehli döyüş maşınının bazasında hazırlana lazer silahının ilk sınaqlarını həyata keçirib. "Porton-Daun" poliqonunda keçirilən sınaqlar zamanı lazer silahı bir kilometr uzaqlıqdakı hədəfləri zərərsizləşdirə bilib. Həmin silahın ilk növbədə pilotsuz uçuş aparatlarına qarşı istifadə olunacağı planlaşdırılır.

## Hindistandan ən çox silah alan ölkələrdən biri Ermənistandır



Ermənistan Hindistandan ən çox silah alan ölkələrdən biridir. Bu barədə Hindistanın IADN agentliyi Müdafiə Nazirliyinin statistikasına istinadən məlumat yayıb.

Məlumata görə, 2024-2025-ci illərdə Ermənistanın Hindistandan alacağı silahların ümumi dəyəri 600 milyon dollar təşkil edəcək.

2021-ci ildən Ermənistan Hindistandan raketlər, artilleriya sistemləri, hava hücumundan müdafiə sistemləri və digər növ silahlar alır.

## ABŞ və Cənubi Koreya F-18 və F-35 təyyarələrindən istifadə etməklə təlimlərə başlayıb



ABŞ və Cənubi Koreya silahlı qüvvələri F-18 və F-35 qırıcılarından istifadə etməklə birgə hava təlimlərinə başlayıb. Cənubi Koreya tərəfi F-16, FA-50, KA-1 və F-15K təyyarələrindən istifadə edəcək.

Təlim avqustun 8-dək davam edəcək. Təlim zamanı Seulun cənubundakı Suvon şəhərindəki aviabazadan istifadə olunacaq.

Təlimlərin keçirilməsində məqsəd KXDR-dən gələn təhlükəni nəzərə alaraq, əməkdaşlığı və birgə döyüş imkanlarını gücləndirməkdir.

Təlimlərə müttəfiqlərin hava qüvvələri arasında qarşılıqlı əlaqəni artırmaq üçün qırıcı manevrlər, hava dəstəyi, hava əks-tədbirləri və hava hücumundan müdafiə daxildir.

**AZƏRTAC-ın materialları əsasında**

# “Hərbi Dəniz Qüvvələri” fakültəsinin kursantları ilə praktiki məşğələlər keçirilir

*Heydər Əliyev adına Hərbi İnstitutun 2023-2024-cü illər üçün tədris planı və proqramına uyğun olaraq, "Hərbi Dəniz Qüvvələri" fakültəsinin kursantları ilə praktiki məşğələlər keçirilir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə kursantlara gəmidə davranış və təhlükəsizlik qaydaları çatdırılıb, eləcə də şəxsi heyətin gündəlik fəaliyyəti izah edilib.

Məşğələlər zamanı baş komanda məntəqəsində idarəetmənin təşkili, döyüş gəmilərinin "səfərə" və "döyüşə" hazır vəziyyətinə gətirilməsi, radiolokasiya stansiyası vasitəsilə texniki, eləcə də hərəkət zamanı vizual müşahidənin aparılması, Semafor bayraqları ilə siqnal rabitəsinin təşkili üzrə tapşırıqlar yerinə yetirilib.

Sonra Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda keçirilən praktiki məşğələlərdə idarəetmənin təhlükəsizliyi və gəminin maşın bölməsində hərəkətvericilərin istismarı qaydaları izah olunub.

Məşğələlərin əsas məqsədi kursantların tədris müddətində yiyələndikləri nəzəri biliklərinin və praktiki vərdişlərinin daha da təkmilləşdirilməsidir.





## Yeni nəşrlər

# “Zəngəzurun tarixi arxiv sənədlərinin fonunda etnoqrafik və geosiyasi reallıqları” kitabının təqdimat mərasimi keçirildi




Strateji Kommunikasiyalar Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə "İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək" İctimai Birliyi tərəfindən həyata keçirilən layihə nəticəsində ərsəyə gələn "Zəngəzurun tarixi arxiv sənədlərinin fonunda etnoqrafik və geosiyasi reallıqları" (Historical and ethnographic panorama of Zangezur on the archive documents background) kitabının və Zəngəzurun tarixi haqqında videoçarxın təqdimat mərasimi keçirildi.

Tədbirdə nüfuzlu alimlər, qeyri-hökumət təşkilatlarının nümayəndələri, ictimaiyyət və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Təqdimat mərasimində kitabın müəllifi, Bakı Slavyan Universitetinin professoru, Əməkdar jurnalist Şəlalə Həsənova Zəngəzurun tarixi və etnoqrafik mənzərəsinin ingilis dilində işıqlandırılmasının əhəmiyyətini vurğulayaraq qeyd etdi ki, Rusiya, Gürcüstan və Ermənistanın milli arxivlərindən əldə edilmiş arxiv sənədləri əsasında işıqlandırılan faktlar Qərb siyasi və akademik dairələr üçün təkzibolunmaz elmi baza mənbəyidir. "Kitabda çox sayda unikal faktlar yer alıb. Onlardan öncülü Zəngəzurun ilkin inzibati dəyişikliklərinin göstərilməsi, türk mənşəli tayfaların, minbaşılıqların təsviri, köçürülmüş ermənilərin azərbaycanlılara qarşı əsassız məhkəmə iddiaları, Comərdli kəndi və Sisian mahalı haqqında maraqlı məlumatlar, 1832 və 1873-cü illərdə ermənilərin Zəngəzura köçürülməsi barədə müfəssəl cədvəldir. Əzəli yurdumuz Zəngəzurda məskən salan azərbaycanlı yarım köçəri və oturaq tayfalar ilk dəfə olaraq bu kitabda işıqlandırılıb. Burada məskunlaşma ilə bağlı müxtəlif illərdə aparılan statistik nəticələr müqayisəli şəkildə təqdim olunub".



Müəllif çıxışında maliyyə dəstəyinə görə Mədəniyyət Nazirliyinə, kitabın hazırlanmasında əməyi olan redaktor-məsləhətçisi, arxiv işinin bilicisi Rəzzaq Xansuvarova və tərcüməçi Məmməd Nəcəfzadəyə təşəkkürünü bildirdi.

Təqdimat mərasimində tarix elminin öncül alimləri Firdovsiyyə Əhmədova, Cəbi Bəhramov, görkəmli jurnalist, Rusiyanın Xalqlar Dostluğu Universitetinin dosenti Anar Həsənov, tədqiqatçılar Əli Abdullayev, Bəxtiyar Həsənov, vətəndaş cəmiyyətinin fəalları Rauf Zeyni, Bahar Qasımova, İradə Rizazadə Şərqi Zəngəzur İqtisadi Zonasının yaradılmasının müstəsna əhəmiyyətini, Qərbi Azərbaycan İcmasının formalaşmasının əzəli, dədə-baba torpaqlarımıza, Zəngəzura qayıdışa ümidləri artırdığını bir daha diqqətə çatdıraraq, mövzunun aktuallğı, tarixi sənədlərin araşdırılmasının və ingilis dilində işıqlandırılmasının vacibliyi, kitabın xarici ölkələrdə yayılmasının əhəmiyyəti haqqında geniş danışdılar.

Sonda videoçarx nümayiş olundu.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın karate komandası beynəlxalq turnirdə medal qazanıb



Azərbaycanın ənənəvi karate stili üzrə komandası Türkiyənin Bursa şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edib.

15-16 yaş kateqoriyasında mübarizə aparan Ayxan Şabanzadə, Hüseyn Sadiqov və Cavid Quliyevdən ibarət kollektiv yarışda fəxri kürsüyə qalxıb.

Komanda turniri bürünc medalla başa vurub.

## Çempionlar Liqası: “Qarabağ” ilk oyunda “Linkoln”u məğlub edib



UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində üz-üzə gələn "Linkoln" (Cəbəllütariq) və "Qarabağ" komandaları arasında oyun başa çatıb.

Görüş Ağdam təmsilçisinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

"Qarabağ"ın qollarını 45+2-ci dəqiqədə Olavio Juninyo və 75-ci dəqiqədə Toral Bayramov vurublar.

Qeyd edək ki, komandalar arasında cavab oyunu iyulun 30-da Bakıda olacaq. Bu cütün qalibi III təsnifat mərhələsində "Lüdoqorets" (Bolqarıstan) - "Dinamo" (Minsk, Belarus) duelinin güclüsü ilə qarşılaşacaq.

## Avropa çempionatı: Azərbaycan basketbol millisi Ermənistanı məğlub edərək qrup lideri kimi yarımfinala yüksəlib



Azərbaycan basketbol millisi Albaniyanın Elbasan şəhərində 18 yaşa qədər oğlanlar arasında keçirilən Avropa çempionatının "C" divizionunda son qrup oyununa çıxıb.

B qrupunda qərarlaşmış yığmamızın rəqibi Ermənistan seçməsi olub. Görüş milli komandanın 76-69 hesablı qələbəsi ilə yekunlaşıb. Qarşılaşmanın ən məhsuldar basketbolçusu Azərbaycan kollektivinin üzvü Derin Berköz (18 xal, 5 asist) seçilib. Yığma bu qələbədən sonra qrup lideri olaraq yarımfinala vəsiqə qazanıb.

## Azərbaycanın yeniyetmə stolüstü tennisçiləri təlim-məşq toplanışlarına qatılacaqlar



Azərbaycanın yeniyetmə stolüstü tennisçiləri Onur Quluzadə ilə Yağmur Məmmədli növbəti təlim-məşq toplanışlarına qatılacaqlar.

Komanda üzvləri bu məqsədlə əvvəlcə Çin Xalq Respublikasına yollanıblar. Onlar avqustun 12-dək baş məşqçi Mixail Timofeyevin rəhbərliyi ilə Şanxay şəhərinin stolüstü tennis mərkəzində toplanışda olacaqlar.

Onur Quluzadə ilə Yağmur Məmmədli ardınca qitənin ən istedadlı stolüstü tennisçiləri üçün Strasburqda təşkil ediləcək "Eurotalents" təlim-məşqlərinə qatılacaqlar.

Bu toplanışlar 2011-ci il təvəllüdlü və daha kiçik yaşlıların avqustun 23-dən 25-dək Fransanın Şiltiqheym şəhərində keçiriləcək "Euro Mini Champs" yarışına hazırlıq məqsədi daşıyır.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Cəlilov Xəyyam Mirzəsöyün oğluna məxsus MN № 0050196 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Məmmədov Fuad Əli oğluna məxsus MN № 0057066 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 470
Nüsxə 4623